DOI: https://doi.org/10.36719/2663-4619/126/39-42

**Səbuhi Həşimov**
Heydər Əliyev adına Hərbi İnstitut
https://orcid.org/0009-0003-2982-7220
sebuhiheshimov83@mail.ru

# Döyüşdə psixoloji üstünlüyün əhəmiyyəti

## Xülasə

Müasir müharibə şəraitində şəxsi heyətin döyüş qabiliyyətini müəyyən edən əsas amillərdən biri onun psixoloji üstünlüyüdür. Psixoloji üstünlük yalnız fiziki hazırlıq və silah üstünlüyü ilə deyil, həm də döyüşçünün mənəvi dayanıqlığı, inamı, iradəsi və emosional sabitliyi ilə formalaşır. Müharibə şəraitində insan davranışının öyrənilməsi göstərir ki, yüksək psixoloji hazırlığa malik şəxsi heyət daha tez qərar qəbul edir, stressə qarşı daha davamlı olur və komanda daxilində sarsılmaz birlik nümayiş etdirir. Azərbaycan ordu quruculuğunda şəxsi heyətinin təkcə silah və təhsilli ordu yaradaraq irəliləməsi ilə deyil, həm də lider komandirlər yetişdirdi. Liderin həmişə məqsədi və missiyası olmalıdır. Azərbaycan zabitinin isə bir məqsədi və missiyası işğal olunmuş torpaqlarımızı xilas etmək idi. İstər döyüşdən əvvəlki proseslərdə, istərsə də döyüş şəraitində hərbçinin əhval ruhiyyəsinin yüksək olması istənilən nəticənin əldə olunması üçün çox önəmlidir.

***Açar sözlər:*** *psixoloji, motivasiya, döyüş, hazırlıq, ordu*

**Sabuhi Hashimov**
Heydar Aliyev Military Institute
https://orcid.org/0009-0003-2982-7220
sebuhiheshimov83@mail.ru

# The Importance of Psychological Advantage in Combat

## Abstract

One of the main factors that cause personal psychological struggle of modern military personnel is their superiority. Psychological superiority is formed not only by physical training and superiority in weapons, but also by the moral stability, confidence, will, and emotional stability of the fighter. The study of social behavior in war shows that having a high psychological state makes decisions faster. In the construction of the Azerbaijani army, the personal staff not only advanced by creating a weapon and an educated army, but also trained leading commanders. The leader should have a development and mission. One of the goals and missions of the Azerbaijani officer was to save our occupied lands. Whether in pre-battle processes or in combat conditions, the high morale of the soldier is very important for achieving any result.

***Keywords:*** *psychological, motivation, combat, preparation, army*

## Giriş

Əhval insanın təsəvvür və düşüncəsinə, onların məzmun və istiqamətinə, ətraf aləmə bəslədiyi münasibətə təsir göstərir (Muxtarov, 2002, s. 74). Döyüşçüdə şən və gümrah əhval olduqda ətrafındakı hər şey ona xoş təsir bağışlayır. Əksinə olduqda isə hər şey ona sönük, mənasız və çətin görünür. Üstün psixologiyaya malik olan zabit şəxsi heyətinə motivasiya verməyi və yüksək ruhda təlim və ya döyüşə qatılmasına nail olmalıdır. Zabit fəaliyyəti çətin, məsuliyyətli xidməti funksiyalarla bağlı ictimai məqsədləri özündə birləşdirir. Bütün bunlara hazırlıq isə xüsusi hərbi təlim mərkəzlərində — ali hərbi məktəblərdə həyata keçirilir (İsmayılov, 2014, s. 138).

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

Fəaliyyət göstərdiyim Heydər Əliyev adına Hərbi İnstitutun rəhbərliyi və pedaqoji kollektivi üçün bu məsələ daima prioritetlər siyahısındadır. Burada hərbiyəlilərə idarəetmənin əsas funksiyaları olan planlaşdırma, təşkilatçılıq, istiqamətləndirmə (əmr, komanda şəklində), koordinasiya, qərar vermə, nəzarət funksiyası öyrədilir. Müasir idarəetmədə bir çox fəaliyyət ətraf dairədəki dəyişiklikləri uyğun bir şəkildə mənimsəyərək ortaya çıxır (Sadıqov, 1998, s. 279). Son 25 il ərzində idarə edənlər kompüterlərin texnoloji inkişafından yararlanaraq daha çox uğurlar əldə etdiyini nəzərə alaraq bu sahədə inkişaf etmələri üçün hərbiyəlilərə hər cür şərait yaradılmışdır.

**Tədqiqat**

**Döyüşdə psixoloji üstünlüyün anlayışı və əhəmiyyəti**

Psixoloji üstünlük — şəxsi heyətin mənəvi və emosional sabitliyini, döyüş şəraitində iradə gücünü və məqsədyönlülüyünü ifadə edən kompleks göstəricidir. Hərbi psixologiyada bu anlayış "döyüş ruhu", "psixoloji dözümlülük" və "mənəvi sabitlik" terminləri ilə əlaqələndirilir. Mənəvi ruh ordunun şəxsi heyətinin möhkəmliyi üçün vacibdir. Düşmən silahlarına qarşı dayanma qabiliyyəti, döyüş şəraitində düzgün istiqamətlənmə və silahlardan düzgün istifadə hərbi qulluqçudan mənəvi-əxlaqi və döyüş ustalığı ilə yanaşı, həm də psixi sarsılmazlıq tələb edir.

Psixoloji üstünlüyə malik döyüşçü qorxuya nəzarət edə bilir, təşviş vəziyyətində belə adekvat qərarlar qəbul edir və döyüş tapşırığını tam məsuliyyətlə yerinə yetirir. Bu xüsusiyyətlər təkcə fərdi deyil, eyni zamanda kollektiv psixoloji hazırlığın da nəticəsidir.

**Psixoloji üstünlüyün formalaşma səbəbləri**

*Şəxsi heyətin psixoloji üstünlüyünün formalaşması aşağıdakı amillərdən asılıdır:*

- İdeoloji və mənəvi motivasiya: Döyüşçünün Vətənə sədaqət hissi, milli-mənəvi dəyərlərə bağlılığı.
- Döyüş şəraitində idarəetmə prosesinin psixoloji xüsusiyyətlərinin öyrənilməsi ilk öncə şəxsi heyətin komandirə, onun bilik və bacarığına olan inamın mahiyyəti ilə şərtlənir. Belə ki, məhz komandirin bilik və bacarığına, mənəviyyat və səmimi vəziyyətinə inanan kollektiv onun ətrafında möhkəm birləşə bilir. Bu inam tabelikdə olanların döyüş fəaliyyətini artırır və psixoloji travmanın qarşısının alınması üçün zəmin yaradır (Qasımov, Şəfiyeva və Əhmədov, 2004, s. 26).
- Komandanın liderlik keyfiyyətləri: Liderin davranışı, ədalətli münasibəti və şəxsi nümunəsi kollektivin psixoloji durumuna birbaşa təsir edir.
- Hərbi təlim və döyüş hazırlığı: Yüksək səviyyəli hazırlıq döyüşçünün özünə inamını artırır, qorxu və qeyri-müəyyənlik hissini azaldır.
- Kollektiv ruh və həmrəylik: Döyüşçülər arasında qarşılıqlı etimad, dostluq və məsuliyyət hissi birlikdə psixoloji sabitlik yaradır.

***44 günlük Vətən müharibəsində psixoloji üstünlük***

Azərbaycan Ordusunun 44 günlük Vətən müharibəsində (2020) nümayiş etdirdiyi yüksək döyüş ruhu psixoloji üstünlüyün klassik nümunəsidir. Səngər Generalı ləqəbli general Polad Həşimovun Tovuz rayonu istiqamətində gedən döyüşlərdə şəhid olması orduda qisas və məsuliyyət hissini gücləndirdi. Polad Həşimov ön cəbhədə, əsgərləri ilə çiyin-çiyinə döyüşən general idi. Onun şəhidliyi hərbçilərdə "yarımçıq qalan işi tamamlamaq" əzmini artırdı, döyüş ruhu yüksəldi. Generalın ön xəttdə şəhid olması zabit və əsgərlərə nümunə oldu, "komandir də bizimlədir" düşüncəsini möhkəmləndirdi.

Birlik və intizam daha da gücləndi. Orduda həmrəyliyin və fədakarlığın simvoluna çevrildi. Ordunun bütün qruplarında milli birlik, Vətənə sevgi və şəhidlərə hörmət kimi dəyərlər psixoloji dayanıqlığı gücləndirdi. Bir yandan mülki əhalinin orduya verdiyi dəstək, bir yandan isə ordu rəhbərliyinin bu sahədə gördüyü işlər orduda motivasiyanı daha da gücləndirirdi. Nümunə üçün hərbi pilot olaraq döyüşlərə qatıldığım N saylı hərbi hissədə səs gücləndiricilər vasitəsilə aerodrom ərazisinə yayılan vətənpərvərlik ruhunda olan mahnıların pilot və texniki heyətin motivasiyalarına necə təsir etdiklərini göstərə bilərəm. Vətənpərvərlik mahnıları sədaları altında sevinclə və eyni zamanda qisas hissi ilə döyüşə gedən şahinlərimizi görmək qürurverici idi. Ən çox motivasiyanı isə ordu xalq tərəfindən alırdı. Könüllü olaraq cəbhəyə getmək istəyənlər, maşınlarla orduya yardım aparanlar və s. kimi dəstək ordunun psixoloji vəziyyətini daima üstün saxlayırdı.

Xüsusilə Xüsusi Təyinatlı Qüvvələrin və ön cəbhə bölmələrinin fəaliyyəti göstərdi ki, psixoloji sabitlik texnoloji və taktiki imkanlarla yanaşı, qələbəni təmin edən əsas faktorlardandır. Şəxsi heyət qarşısında qoyulan məqsədi aydın şəkildə dərk etdiyindən, qorxu hissi minimal, motivasiya isə maksimum səviyyədə idi.

44 günlük müharibə həm də göstərdi ki, müasir döyüşlərdə informasiya müharibəsi və mənəvi təsir vasitələri psixoloji vəziyyətə mühüm təsir göstərir. Azərbaycan Ordusu informasiya və mənəvi üstünlüyü də qoruyaraq, düşmən üzərində həm taktiki, həm də psixoloji qələbə qazandı. Real döyüş şəraitinə yaxınlaşdırılmış şəraitdə təlim-döyüş tapşırığının sözsüz yerinə yetirilməsində hərbçilərin psixoloji hazırlığının müvəffəqiyyətlə formalaşmasının ilkin şərtidir (Əliyev, 2003, s. 99).

Bəzən məşğələlər zamanı ayrı-ayrı hərbçilərin döyüş zamanı uğursuzluğa düçar olmasından danışmaq vacib olur, belə səhvlər öyrədilənlərin buraxdıqları öz səhvlərini dərindən başa düşməyə və döyüşdə hansı itkilər hesabına başa gəldiyini dərk etmələrinə kömək edir (Əliyev, 2005, s. 62).

**2023-cü il antiterror əməliyyatlarında psixoloji dayanıqlığın rolu**

2023-cü ilin sentyabrında keçirilən lokal antiterror əməliyyatları zamanı şəxsi heyətin qısa zamanda döyüş tapşırıqlarını uğurla yerinə yetirməsi əvvəlki dövrlərdə qazanılmış psixoloji təcrübənin və ruh yüksəkliyinin nəticəsi idi. Müharibədən sonra da Azərbaycan Ordusunun şəxsi heyəti yüksək psixoloji nizam-intizam nümayiş etdirdi. Bu əməliyyatlarda əsgər və zabitlərin davranışları göstərdi ki, milli ruh və psixoloji sabitlik uzunmüddətli sülhün və təhlükəsizliyin təminatında mühüm rol oynayır.

**Psixoloji üstünlüyün nəticələri və döyüş qabiliyyətinə təsiri**

*Psixoloji üstünlüyə malik ordu:*

- Döyüş tapşırıqlarını daha az itki ilə yerinə yetirir;
- Qərar qəbul etmə sürəti və adekvatlığı artır;
- Qorxu və təşviş səviyyəsi azalır;
- Komanda və kollektiv əlaqələri möhkəmlənir;
- Müsbət emosional fon və mənəvi rahatlıq yaranır.

Bu xüsusiyyətlər müharibədən sonrakı dövrdə də şəxsi heyətin sosial adaptasiyasına, xidmət intizamına və mənəvi bütövlüyünə müsbət təsir göstərir.

## Nəticə

Nəticə etibarilə, döyüşdə psixoloji üstünlük şəxsi heyətin mənəvi dayanıqlığını təmin edən strateji amildir. Həm 44 günlük Vətən müharibəsi, həm də 2023-cü il antiterror əməliyyatları sübut etdi ki, psixoloji sabitlik, milli dəyərlərə sadiqlik və peşəkar hazırlıq bir araya gəldikdə, döyüşün nəticəsi də qələbə ilə yekunlaşır.

Bu səbəbdən, müasir hərbi təlim sistemində psixoloji hazırlığın artırılması, liderlik keyfiyyətlərinin gücləndirilməsi və mənəvi motivasiyanın davamlı saxlanılması əsas prioritet olmalıdır. Bu qələbə bir xalq kimi bizim gücümüzü göstərdi, Azərbaycanın bir dövlət kimi potensialını nümayiş etdirdi. Bunu düşmən də, onun havadarları da gördü. Gördülər ki, ötən 30 ildə Azərbaycan öz haqlı davasından bir addım da geri çəkilməyib (Science.gov.az, 2020). Ali Baş Komandan cənab İlham Əliyev Vətən müharibəsi haqqında belə demişdir: "Azərbaycan 44 gün ərzində parlaq qələbə qazanaraq Ermənistanı məğlub etdi, işğala son qoydu. Bu 44 günün hər günü bizim şanlı tariximizdir." (DTX, 2022).

## Ədəbiyyat

1. Əliyev, N. A. (2000). *Hərbi qulluqçuların döyüş fəaliyyətinin və xidmətinin psixoloji təhlili*.
2. Əliyev, N. A. (2003). *Hərbi qulluqçularla fərdi-psixoloji hazırlığın aparılması metodikası*.
3. Əliyev, N. A. (2005). *Hərbi təlimin pedaqoji aspektləri*.
4. Atamalı, S. (Tərcümə, 1998). *İdarəetmə elminə giriş*. Bakı Mətbəəsi.

5. Əlizadə, R. (2017). *Müharibə şəraitində insan davranışı*. Elm və Təhsil.
6. İsmaylov, R. (2014). *Hərbi psixologiya və pedaqogika – 1* (s. 138).
7. İslamzadə, E. (Tərcümə, 1998). *Hərbi psixologiya* (s. 98).
8. Muxtarov, V. Ə. (2002). *Hərbi psixologiya* (s. 74).
9. Pintosevic, İ. (2019). *Təsir et!* Qanun Nəşriyyatı.
10. Qasımov, C., Şəfiyeva, E., & Əhmədov, N. (2004). *Hərbi psixologiya*. Vətən Akademiyası.
11. DTX. (2022, 5 noyabr). *dtx.gov.az*. https://www.dtx.gov.az
12. Science.gov.az. (2020, 29 dekabr). *science.gov.az*. https://www.science.gov.az

Daxil oldu: 11.09.2025
Qəbul edildi: 15.12.2025